https://doi.org/10.59849/3006-1342.2025.2.44
UOT 94(479.24)

*Zəhra Rüstəm qızı İslamova*
*Bakı Dövlət Universiteti, Azərbaycan tarixi (təbiət fakültələri üzrə)*
*kafedrasının müəllimi, t.ü.f.d.*
*E-mail: zahraislamova@bsu.edu.az*
*https://orcid.org/0000-0002-9530-4263*

# ŞİRVANŞAHLAR DÖVLƏTİNİN FORMALAŞMASI VƏ DİNİ-SİYASİ İDARƏETMƏ MODELİ (IX–XVI ƏSRLƏR)

*Şirvanşahlar dövləti Azərbaycan tarixində mühüm yer tutan, IX–XVI əsrlər ərzində Şirvan və Arran bölgələrində siyasi, iqtisadi və mədəni cəhətdən əhəmiyyətli rol oynamış bir dövlətdir. Ərəb Xilafətinin regiona daxil olması ilə formalaşmağa başlayan bu dövlət, yerli əyan ailələrinin siyasi və dini idarəçilikdəki bacarıqları sayəsində müstəqilliyini qismən qoruyub saxlamışdır. Məzyədilər sülaləsindən başlayan və sonradan Kəsranilər, ardınca Dərbəndilər kimi tanınan Şirvanşahlar, Ərəb Xilafəti, Səlcuqlular, Monqollar, Teymurilər və Səfəvilər kimi böyük imperiyaların təsiri altında çevik idarəetmə modeli nümayiş etdirmişlər. Araşdırma Şirvanşahlar dövlətinin formalaşma prosesini, dini-siyasi idarəetmə strukturlarını və vəqf institutunun rolunu təhlil edərək, dövlətin tarixi trayektoriyasını qiymətləndirməyi hədəfləyir. Məqalədə Şirvanşahların müxtəlif dövrlərdəki siyasi strategiyaları və dini idarəçilikdəki rolları ətraflı araşdırılır.*

*Açar sözlər:* Şirvanşahlar, Məzyədilər, Kəsranilər, vəqf institutu, dini idarəçilik, siyasi muxtariyyət

## 1. Şirvanşahların Ərəb Xilafəti dövründə (VII-VIII əsrlər) yerli əyan ailəsi kimi ortaya çıxması

VII-VIII əsrlərdə Ərəb Xilafətinin Azərbaycan torpaqlarını fəth etməsi ilə Kür çayından şimalda yerləşən torpaqlarda yeni siyasi quruluş formalaşmağa başladı. Bu dövrdə Azərbaycanın şimal-şərqində, xüsusilə Şirvan və Arran bölgələrində yerli əyan ailələri xilafətin idarəçilik sistemində mühüm rol oynayırdılar. VII əsrdə Şirvanın ərəblər tərəfindən işğalı zamanı yerli əyan ailələri arasında Şirvanşahlar öz mövqelərini qoruyub saxlamağa müvəffəq olmuşlar. Bu, onların həm siyasi, həm də iqtisadi cəhətdən güclü olmalarından irəli gəlirdi. Şirvanşahlar, xilafətin regionda sabitlik təmin etmək üçün yerli hakim ailələrə ehtiyac duyması səbəbindən, öz müstəqilliklərinin müəyyən hissəsini qoruya bilmişlər (1, s. 50-51) Məzyədilər sülaləsi bu ailələrdən biri kimi önə çıxdı. Məzyədilər, kökləri ərəb Rəbiə tayfasına dayanan bir sülalə olaraq, VIII əsrin əvvəllərində Arran ərazisində paytaxtı Bərdə olan yarımmüstəqil bir əmirlik yaratmışdılar. Bu əmirlik xilafətin mərkəzi hakimiyyətinə nominal bağlı olsa da, yerli idarəçilikdə müəyyən muxtariyyətə malik idi. Məzyədilər sülaləsinin Şirvan bölgəsindəki nüfuzu getdikcə artmış və onlar IX əsrin ortalarında xilafətin daxili çəkişmələrindən, xüsusilə 861-ci ildə xəlifə Mütəvəkkilin (822-861) öldürülməsindən sonra Bağdadda baş verən siyasi qarışıqlıqlardan istifadə edərək mövqelərini möhkəmləndirmişdilər. Bu dövrdə Məzyədilər, Şirvanın strateji əhəmiyyətini nəzərə alaraq, bölgənin iqtisadi və hərbi potensialını tam olaraq öz nəzarətləri altına aldılar. Xilafətin zəifləməsi ilə Məzyədilər yerli hakimiyyət olaraq daha müstəqil hərəkət etməyə başladılar və bu, onların Şirvanşahlar dövlətinin əsasını qoymasına zəmin yaratdı. Ərəb istilaları dövründə

Şirvanşahların ərəb hökmdarları ilə münasibətləri bəzən gərginləşmiş və üsyanlarla izlənmişdi. VIII əsrdə Şirvanşahların bəzi nümayəndələrinin xilafətə qarşı üsyanlar təşkil etdiyi məlumdur. Lakin bu üsyanlar adətən uğursuzluqla nəticələnirdi, çünki ərəb orduları hərbi cəhətdən qat-qat üstün idi. Buna baxmayaraq, Şirvanşahlar öz hakimiyyətlərini qoruyub saxlamaq üçün diplomatik bacarıqlarını istifadə edirdilər.

## *2. IX-XI əsrlərdə müstəqilliyin əldə edilməsi və Səlcuqlularla əlaqələr*

IX əsrdə Ərəb Xilafətinin daxili zəifləməsi və mərkəzi hakimiyyətin bölgələr üzərindəki nəzarətinin azalması Şirvanşahların müstəqillik əldə etməsi üçün əlverişli şərait yaratdı. Məzyədilər sülaləsindən olan Heysam ibn Xalid, 861-ci ildə xəlifə əl-Mütəvəkkilin öldürülməsi və Bağdadda türk hərbi qüvvələrinin fəaliyyəti ilə bağlı yaranan qarışıqlıqlardan yararlanaraq Şirvanda müstəqil hakimiyyət elan etdi. Bu, Şirvanşahlar dövlətinin rəsmi olaraq yaranması kimi qeyd olunur. Məzyədilərin ilk Şirvanşah titulunu qəbul edən nümayəndəsi Heysam ibn Xalid oldu və dövlətin ərazisi Dərbənddən Kür çayına qədər olan Azərbaycan torpaqlarını əhatə etdi. IX-XI əsrlərdə Şirvanşahlar dövləti ərazisini genişləndirdi və siyasi-iqtisadi cəhətdən möhkəmləndi. II Heysam ibn Məhəmməd dövlətin sərhədlərini möhkəmləndirdi, Şirvan şəhərində anbarlar tikdirdi və Dərbənddəki döyüşçülərin təchizatını yaxşılaşdırdı. Heysam ibn Məhəmməd ibn Heysam (II Heysam), Şirvanşahlar dövlətinin IX–X əsrlərdəki hökmdarlarından biri olaraq, dini siyasətində İslamın yayılmasını və dövlətin ideoloji sabitliyini təmin etməyə xüsusi diqqət yetirmişdir. Onun dini siyasəti, vəqf institutunun inkişafı və sərhəd bölgələrindəki dini-sosial nəzarətin gücləndirilməsi ilə səciyyələnirdi. Aşurbəyliyə əsasən, II Heysam Cənubi Dağıstanda "kafir" qonşulara qarşı mübarizə aparmış, bu da onun dini xarakterini və İslamın sərhədlərini qorumaq istəyini göstərir. Bu mübarizə, Şirvanşahların sünni məzhəbinə bağlılığını və regionda İslamın mövqelərini möhkəmləndirmək siyasətini əks etdirir. II Heysam vəqf institutuna böyük əhəmiyyət verirdi. O, Dərbənd qazilərinə bir neçə kəndi vəqf olaraq bağışlamış, bu torpaqların gəlirlərini dini və sosial ehtiyaclar üçün yönəltmişdir. Paytaxtında anbarlar tikdirərək məhsulların yığılmasını və əl-Bab (Dərbənd) sərhəd vilayətlərindəki korluq çəkən sakinlər və qazilər arasında paylanmasını təmin etmişdir (5, s. 148). Bu, onun dini xeyriyyəçilik siyasətinin və rəiyyətin rifahına diqqətinin göstəricisidir. Vəqflər vasitəsilə dini qurumlar maliyyələşdirilərək məscidlər və mədrəsələr kimi mərkəzlərin fəaliyyəti dəstəklənirdi, bu da dövlətin dini hakimiyyətini gücləndirirdi. II Heysamın əmir kimi mərhəmətli və ədalətli idarəçiliyi, eləcə də dini xasiyyəti onun yaşadığı müddətcə dövlətin sabitliyinə töhfə vermişdir. Onun siyasəti Şirvanşahların dini idarəçilikdə İslam prinsiplərinə sadiqliyini və sosial rifahı təmin etmək üçün vəqf sistemindən səmərəli istifadəsini bir daha nümayiş etdirir.

### *2 a. II Heysəmin dini siyasəti*

II Heysəm ibn Fərruxzad (təqribən XI əsrin əvvəlləri), Şirvanşahlar sülaləsinin əhəmiyyətli hökmdarlarından biri kimi tanınır. Onun dövründə Şirvanşahlar dövlətində İslam dini, xüsusən sünni (hənəfi və şafii) məzhəbləri möhkəmləndirilmişdir. II Heysəmin dini siyasətində dini müəssisələrin dəstəklənməsi, ruhani zümrəsi ilə birgə fəaliiyyət, islam hüququna əsaslanan idarəetmə, daxili sabitliyin təminində dinin rolu kimi xüsusiyyətləri ön plana çıxır. O, məscidlərin, mədrəsələrin və vəqflərin fəaliyyətini təşviq etmişdir. Bu qurumlar yalnız dini fəaliyyətlə deyil, həm də təhsil və sosial yardım sahələrində fəal olmuşdur. II Heysəm dini alimlərlə yaxın münasibətdə olmuş, onların rəylərinə idarəçilikdə önəm vermişdir. Bu, dövlətin dini hakimiyytini gücləndirən mühüm faktor idi. Şəriət qanunları dövlət idarəsində əsas hüquqi baza sayılırdı. Qazilər və müftilər dövlət strukturunun

bir hissəsi kimi fəaliyyət göstərirdilər. Dini birlik və mənəvi dəyərlər dövlətin sabitliyi və ictimai nizamın qorunması üçün əsas vasitələrdən biri idi.

915-ci ildə hakimiyyətə gələn Əbu Tahir dövlətin sərhədlərini cənubda Kür çayına, şimalda isə Dərbəndə qədər genişləndirə bilmişdi. 917-ci ildə Lahicanşahlığı, 918-ci ildə isə Şamaxı Şirvanşahlığa birləşdirildi və Şamaxı paytaxt elan edildi. Şirvanşah Məhəmmədin dövründə (981-984) Qəbələ, Bərdə və Şabran ələ keçirildi, Şabran şəhəri yenidən quruldu. 988-ci ildə Dərbənd əmirliyinin Şirvanşahlığa birləşdirilməsi isə dövlətin strateji əhəmiyyətini daha da artırdı. XI əsrdə Səlcuqluların bölgədəki yüksəlişi Şirvanşahlar üçün yeni siyasi reallıqlar yaratdı. 1027-ci ildə Mənüçöhrün (1027-1034) taxta çıxması ilə Məzyədilər sülaləsi ərəb köklü adlardan imtina edərək Sasani hökmdarlarına xas adlar qəbul etməyə başladılar və özlərini Kəsranilər kimi təqdim etdilər. Səlcuqluların Azərbaycana daxil olması ilə Şirvanşahlar nominal olaraq onların hakimiyyətini qəbul etsələr də, daxili muxtariyyətlərini qoruyub saxladılar. Səlcuqlarla münasibətlər ümumilikdə sabit olsa da, Şirvanşahlar yerli hakimiyyət kimi öz siyasi və iqtisadi maraqlarını müdafiə etməyə davam etdilər. Bu dövrdə Şirvanşahlığın Dərbənd, Bakı, Şamaxı və Şabran kimi şəhərləri ticarət mərkəzlərinə çevrildi, xüsusilə Bakının neft ixracı bölgənin iqtisadiyyatında mühüm rol oynadı. Şirvanşahların IX-XI əsrlərdəki fəaliyyəti Azərbaycanın şimal-şərqində müstəqil dövlətçiliyin bərpasında və regionun siyasi-iqtisadi inkişafında mühüm rol oynadı. Onların Səlcuqlularla qurduğu münasibətlər isə dövlətin uzunmüddətli sabitliyini təmin etdi.

### *3. XIII-XVI əsrlərdə Şirvanşahların idarəetmə strukturları: Monqol, Teymuri və Səfəvi təsirləri*

XIII-XVI əsrlərdə Şirvanşahlar dövləti Monqol, Teymuri və Səfəvi imperiyalarının təsiri altında öz idarəetmə strukturlarını formalaşdırmış və uyğunlaşdırmışdır. Bu dövr Şirvanşahların siyasi müstəqilliklərinin dəyişkən olduğu, lakin mədəni və iqtisadi cəhətdən mühüm rol oynadıqları bir mərhələdir. Monqol istilaları (1, s. 97-101) Şirvanşahları vassal statusuna salmışdır. Dövlət idarəetməsində monqolların vergi və torpaq siyasəti üstünlük təşkil edirdi. Şirvanşahlar monqol xanlarına tabedirlər, lakin yerli inzibati strukturları qoruyub saxlamışlar. Mərkəzi hakimiyyət Şirvanşahın sarayında cəmləşmiş, divan (idarəetmə orqanı) vasitəsilə vergi toplama və ədliyyə işləri görülmüşdür. Monqolların təzyiqi altında iqtisadi çətinliklərə baxmayaraq, Şirvan ticarət mərkəzi kimi əhəmiyyətini qorudu.

Teymurun yürüşləri Şirvanşahları yeni bir vassal münasibətinə məcbur etdi. Şirvanşah I İbrahim (1382-1417) Teymura qarşı diplomatik bacarıq göstərərək dövlətin müstəqilliyini qismən qorudu. İdarəetmədə Teymurilərin mərkəzləşdirilmiş modelindən təsirlənərək, Şirvanşahlar divan sistemini təkmilləşdirdilər. Yerli feodal bəylər (nəqiblər) və hakimlər vasitəsilə vilayətlər idarə olundu. Bu dövrdə mədəniyyət və memarlıq çiçəkləndi, Şirvan sarayı sənət və elmin himayədarı oldu.

Səfəvilərin hakimiyyətə gəlməsi (1, s. 124-134) Şirvanşahların müstəqilliyinə son qoydu. Səfəvi dövlətinin mərkəzləşdirilmiş idarəetmə sistemi Şirvanı bir vilayətə çevirdi. Şirvanşahlar 1538-ci ildən sonra formal olaraq Səfəvi şahlarının təyin etdiyi valilərə tabe oldular. Səfəvilərin qızılbaşı tayfalarına əsaslanan hərbi-idari sistemi Şirvanda da tətbiq edildi. Divanxana və vəzirlik institutları Səfəvi modelinə uyğunlaşdırıldı, vergi sistemi mərkəzləşdirildi. Şirvanın iqtisadi potensialı (neft, ipək ticarəti) Səfəvi dövlətinin xeyrinə istifadə edildi (4, s. 70-71). Şirvanşahların idarəetmə strukturları Monqol, Teymuri və Səfəvi təsirləri altında çeviklik nümayiş etdirdi. Monqol və Teymuri dövrlərində vassal statusunda qismən muxtariyyət saxlanılsa da, Səfəvilər Şirvanı tam mərkəzləşdirilmiş idarəetməyə inteqrasiya etdi. Şirvanşahlar dövləti bu dövrlərdə mədəniyyət və ticarət mərkəzi kimi əhəmiyyətini qorudu, lakin siyasi müstəqilliyini itirdi.

### 4. Şirvanşahlar dövlətində vəqf institutu və dini idarəçiliyin təşkili

Şirvanşahlar dövləti yalnız siyasi və hərbi baxımdan deyil, həm də dini idarəçilik strukturuna verdiyi önəmlə fərqlənirdi. VII–XVI əsrlər ərzində din, ictimai və iqtisadi sahələrlə sıx şəkildə bağlı idi. Xüsusilə, vəqf institutu dini həyatın təşkili, eləcə də ictimai rifahın təminində mühüm alət rolunu oynayırdı. Vəqflər vasitəsilə məscidlər, mədrəsələr, sufi təriqətinə aid ziyarətgahlar və ictimai binalar maliyyələşdirilir, onların davamlı fəaliyyəti təmin edilirdi. Ərəb xilafətinin təsiri dövründə və sonrakı əsrlərdə Şirvan bölgəsində yerli dini elita ilə siyasi hakimiyyətin əməkdaşlığı sayəsində vəqf mülkləri geniş yayılmışdı. Məzyədilər və daha sonra Kəsranilər sülaləsi dövründə Şirvanda müxtəlif dini vəqflərin mövcudluğu mənbələrdə qeyd olunur. Şirvanşahlar bu vəqflərə nəzarət edən şeyxləri və qaziləri təyin etməklə, dini sahədə həm nəzarəti əldən buraxmır, həm də ictimai nüfuzlarını möhkəmləndirirdilər. Xüsusilə Şamaxı, Bakı, Dərbənd və Şabran kimi şəhərlərdə fəaliyyət göstərən mədrəsələr və sufi zaviyələri geniş vəqf torpaqları və gəlirləri hesabına fəaliyyət göstərirdi. Bu, həm də Şirvanşahların sünni məzhəbi qoruma siyasətinin bir hissəsi idi. Monqol və Teymuri dövrlərində vəqf torpaqlarına müəyyən vergi güzəştləri tətbiq olunsa da, bu institut öz funksionallığını itirməmişdir. Şirvanşah I Xəlilullah (1417-1462) və I Fərrux Yasarın (1462-1500) dövrlərində tərtib edilmiş vəqfnamələr bölgədə dini mərkəzlərin, xüsusilə sufi şeyxlərinin idarə etdiyi təsərrüfatların hüquqi əsaslarla qorunduğunu sübut edir (6, s. 21-25). Qaraqoyunlu və Ağqoyunlu təsirləri altında Şirvanşahlar feodal torpaq sistemini qoruyub saxlamışdır. Şirvanşahlar feodal bəylərə və hərbi elitalara torpaq baxşışları verərək onların sədaqətini təmin edirdilər. Bu sistem yerli hakimlərin (nəqiblər) iqtisadi və siyasi gücünü artırmaqla yanaşı, dövlətin idarəetmə strukturunu möhkəmləndirirdi [2, s. 116-134].

Şirvanşah I Fərrux Yasar (1462–1500) Şirvanşahlar dövlətinin son dövrlərində idarəetmədə fərqlənən hökmdar olmuşdur. Onun dövlət idarəçiliyi rəiyyətin rifahına, qanunçuluğa və dini zümrənin roluna xüsusi diqqət yetirməklə səciyyələnirdi. Fərrux Yasar dövlətin sabitliyini təmin etmək üçün alimlər və ali rütbəli din xadimləri ilə sıx əməkdaşlıq edirdi. O, bu şəxsləri dövlətin dayağı kimi qiymətləndirir, onların fikirlərini idarəetmənin mühüm məsələlərində nəzərə alır və rəiyyətin itaətini təmin etmək üçün onların nüfuzundan istifadə edirdi (1, s. 91). Bu, Şirvanşahların dini-siyasi idarəçilik modelində din xadimlərinin legitimlik və sosial nəzarət vasitəsi kimi önəmini göstərir.

Fərrux Yasarın qızılbaşlığın sürətlə nüfuz dairəsini genişləndirdiyi bir məqamda yürütdüyü dini siyasəti də diqqətçəkəndir. O, dərvişlərə ehtiram göstərərək sufi təriqətlərinin cəmiyyətdəki rolunu dəstəkləyirdi. Xeyriyyə fəaliyyətlərinə xüsusi önəm verən hökmdar, vəqf institutunu gücləndirmək üçün əhəmiyyətli addımlar atmışdır. 1490-cı ildə (h.895) Bakıdakı Əbu Səid ibadətgahının vəqfinə Abşeronda neftli torpaqlar, əkin sahələri və üzümlüklər bağışlamışdır (6, s. 92). Bu, vəqf sisteminin iqtisadi dayanıqlığını təmin etməklə yanaşı, dini mərkəzlərin sosial və mədəni funksiyalarını dəstəkləyirdi. Vəqflər vasitəsilə məscidlər, mədrəsələr və sufi ziyarətgahları maliyyələşdirilərək Şirvanşahların sünni məzhəbə bağlı dini siyasəti möhkəmləndirilirdi.

Şirvanşahların dini siyasəti dini elitanın cəmiyyətdəki nüfuzunu artırmaqla dövlətin ideoloji legitimliyini gücləndirməyə xidmət edirdi. Fərrux Yasar bu siyasəti davam etdirərək dini qurumları idarəetməyə cəlb etmiş, eyni zamanda iqtisadi resursları, xüsusilə neft ticarətini, dövlətin sabitliyi üçün səmərəli istifadə etmişdir. Lakin onun həlak olması ilə Şirvanşahlar dövləti tənəzzülə uğramış və nəticədə Səfəvilərin hakimiyyəti altında muxtariyyətini itirmişdir. Fərrux Yasarın idarəçilik tərzi və dini siyasəti Şirvanşahların dövlətçilik ənənələrində dini və siyasi institutların sintezini əks etdirir.

### *4 a. Fərrux Yasarın dini siyasəti*

Fərrux Yasar (təqribən 1465–1500), Şirvanşahlar dövlətinin son qüdrətli hökmdarlarından biri olmuş və siyasi-dini sabitliyi qorumaq üçün aktiv siyasət yürütmüşdür. Onun dini siyasətində dini təbəqələrlə sıx əməkdaşlıq, vəqf siyasəti, sünniliyin təşviqi, dini maarifləndirmə və təhsil cəhətləri ilə seçilir. Fərrux Yasar dövlət idarəçiliyində din xadimlərinin fikrinə önəm verir, alimləri və şeyxləri dövlət məsləhətlərinə cəlb edirdi. Onların nüfuzundan daxili sabitlik və dini legitimlik üçün istifadə olunurdu. Həmçinin, Fərrux Yasar vəqf mülkiyyətinin genişlənməsinə şərait yaratmış, məscid və mədrəsələrə verilən vəqflərlə dini və sosial strukturların dayanıqlığını təmin etmişdir. Səfəvi təsirinin artmağa başladığı bir dövrdə Fərrux Yasar sünni məzhəbini dövlət siyasətində önə çıxarırdı. Bu, həm dini baxımdan, həm də siyasi mübarizə baxımından önəmli idi. Onun dövründə dini təhsil müəssisələrinin inkişafı və elm adamlarının fəaliyyətinə şərait yaradılması xüsusi diqqət mərkəzində idi. II Heysəm və Fərrux Yasarın siyasətində din yalnız bir inanc sistemi kimi deyil, həm də sosial nizamı qoruyan və siyasi hakimiyyətin legitimliyini gücləndirən vasitə kimi çıxış etmişdir.

Səfəvi dövrünə qədər nisbi müstəqillik şəraitində fəaliyyət göstərən bu vəqflər, Səfəvilərin qızılbaş idarəçiliyi ilə yeni inzibati formaya salındı. Şiəliyin rəsmi məzhəb elan olunması ilə əvvəlki sünni məzhəbinə bağlı olan vəqflərin bir qismi ləğv olundu, digərləri isə dövlət nəzarətinə keçdi. Şirvanşahların süqutundan sonra da bəzi vəqf mülkləri formal şəkildə fəaliyyətini davam etdirmiş, lakin vəqf idarəçiliyi tamamilə Səfəvi mərkəzləşdirilmiş dini idarəetmə sisteminə, qızılbaşlığa inteqrasiya olunmuşdur. Bununla belə, Şirvan bölgəsində vəqf institutunun dayanıqlılığı və tarixi funksiyası, həmin ərazilərdə müstəqil dini-sosial infrastrukturun formalaşmasına şərait yaratmışdır. Şirvanşahların bu sistemi idarə etməkdə göstərdiyi uğur, dövlətin həm ideoloji hakimiyyətini, həm də sosial sabitliyini qorumağa xidmət etmişdir.

### *Nəticə*

Şirvanşahlar dövləti VII–XVI əsrlər ərzində Azərbaycanın şimal-şərqində müstəqil dövlətçilik ənənələrinin formalaşmasında və regionun siyasi, iqtisadi və mədəni inkişafında mühüm rol oynamışdır. Ərəb Xilafətindən başlayaraq Səfəvilərə qədər olan dövrdə Şirvanşahlar müxtəlif imperiyaların təsiri altında çevik idarəetmə modeli nümayiş etdirmiş, dini və siyasi strukturları uyğunlaşdırmışlar. Vəqf institutu isə dövlətin dini idarəçiliyində və sosial sabitliyində əsas alətlərdən biri olmuşdur. Şirvanşahların diplomatik bacarıqları və iqtisadi potensialdan səmərəli istifadə etmələri dövlətin uzunmüddətli mövcudluğunu təmin etmişdir. Bu dövlətin tarixi Azərbaycan dövlətçilik ənənələrinin dərin köklərə malik olduğunu sübut edir.

### ƏDƏBİYYAT

1. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, "Avrasiya press", 2006, 416 s.
2. Azərbaycan tarixi. Dərslik. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2019, 400 s.
3. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı, "Şərq-Qərb", 2007, 312 s.
4. Əfəndiyev O. A. Azərbaycan Səfəvilər dövləti. Bakı, “Şərq-Qərb”, 2007, 344 s.
5. Minorsky V. Şervan ve Derbend tarihi(10–11 Yüzyıllar). Çeviren: İlhan Aslan. İstanbul: POST YAYINEVİ, 2023, 248 s.
6. Musəvi T.M. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1967. 149 s.
7. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı: “Elm”, 1978. S. 458.
8. Юнусов А.С. Ислам в Азербайджане. Баку: «Заман», 2004. 388 с.

УДК 94(479.24)

*Захра Рустам кызы Исламова*
*Бакинский Государственный Университет*

# ФОРМИРОВАНИЕ ГОСУДАРСТВА И РЕЛИГИОЗНО-ПОЛИТИЧЕСКОЙ МОДЕЛИ УПРАВЛЕНИЯ ШИРВАНШАХОВ

## *РЕЗЮМЕ*

*Ключевые слова:* Ширваншахи, Мазьяди, Касрани, институт вакфа, религиозное управление, политическая автономия

Государство Ширваншахов (IX–XVI века) стало краеугольным камнем в истории Азербайджана, формируя политический, экономический и культурный облик регионов Ширван и Арран. Возникнув в период Арабского халифата, Ширваншахи, возглавляемые династией Мазьядидов, использовали стратегическое положение для обеспечения частичной автономии. В IX веке Хейсам ибн Халид, воспользовавшись ослаблением халифата, создал независимое государство, расширив его территорию от Дербента до реки Кура. Благодаря умелой дипломатии и экономической политике города, такие как Баку и Шемахи, стали процветающими торговыми центрами, а нефтяной экспорт Баку способствовал региональному процветанию. Подъем Сельджуков в XI веке привел к номинальному подчинению, но Ширваншахи, приняв сасанидские имена Кесранидов, сохранили внутреннюю автономию. Под влиянием монголов, Тимуридов и Сефевидов они адаптировали структуры управления, сохраняя культурное и экономическое значение. Институт вакфов играл ключевую роль, финансируя мечети, медресе и суфийские святыни, с налоговыми льготами под управлением назначенных кади и шейхов. Вакфы укрепляли суннитскую политику, поддерживали образовательные и религиозные центры и способствовали социальной сплоченности до шиитских реформ Сефевидов, централизовавших контроль в XVI веке. Научные выводы подчеркивают адаптивное управление и роль вакфов в устойчивости государства при имперских изменениях. Новизна заключается в анализе роли вакфов в религиозно-политической стабильности при множественных влияниях. Практическая значимость предлагает понимание исторического государственного строительства, полезное для современных исследований управления и культурного сохранения. Экономический эффект подчеркивает вклад вакфов в поддержание торговых сетей и культурной инфраструктуры, особенно через нефтяную торговлю Баку. Дипломатические и экономические стратегии Ширваншахов обеспечили их долговечность до интеграции в Сефевидскую систему в 1538 году, оставив долговечное наследие в традициях азербайджанской государственности.

UDC 94(479.24)

*Zahra Rustam İslamova*
*Baku State University*

FORMATİON OF THE SHİRVANSHAHS` STATE AND İTS RELİGİOUS-POLİTİCAL GOVERNANSE MODEL (9 TH-16TH CENTURİES)

*SUMMARY*

*Key words:* Shirvanshahs, Mazyadis, Kasranis, waqf institution, religious governance, political autonomy

This study examines the Shirvanshah state (IX–XVI centuries), a pivotal entity in A The Shirvanshah state (IX-XVI centuries) was a cornerstone in Azerbaijan's history, profoundly shaping the political, economic, and cultural landscape of Shirvan and Arran. Emerging under the Arab Caliphate, the Shirvanshahs, led by the Mazyadid dynasty, leveraged their strategic position to secure partial autonomy. By IX century, Heysam ibn Khalid capitalized on the Caliphate's decline to establish an independent state, extending its territory from Derbent to the Kura River. Through adept diplomacy and economic policies, cities like Baku and Shamakhi became thriving trade hubs, with Baku's oil exports driving regional prosperity. In XI Seljuk rise prompted nominal submission, but the Shirvanshahs, adopting Sassanid-inspired Kesranid names, preserved internal autonomy. Under Mongol, Timurid, and Safavid influences, they adapted governance structures, maintaining cultural and economic prominence. The waqf institution was pivotal, funding mosques, madrasas, and Sufi shrines, with tax-exempt properties managed by appointed qadis and sheikhs. Waqfs reinforced Sunni policies, supported educational and religious centers, and fostered social cohesion until Safavid Shiite reforms centralized control in XVI century. Scientific findings highlight the Shirvanshahs' adaptive governance and waqf system as key to their resilience across imperial shifts. Novelty lies in analyzing waqf's role in sustaining religio-political stability under diverse influences. Practical significance offers insights into historical state-building, informing modern governance and cultural preservation studies. Economic impact underscores waqfs' contribution to sustaining trade networks and cultural infrastructure, notably through Baku's oil trade. The Shirvanshahs' diplomatic and economic strategies ensured longevity until Safavid integration in 1538, leaving an enduring legacy in Azerbaijan's statehood traditions.

***Daxil oldu: 30.06.2025-ci il***